# AZƏRBAYCAN VƏ QIRĞIZ BƏDİİ NƏSRİNDƏ TARİXİ MÜHİT VƏ ŞƏRTİ METAFORİZM

***(İsa Muğannanın "Məhşər" və Çingiz Aytmatovun "Çingiz xanın ağ buludu" əsərləri kontekstində)***

**Sənurə Səmədova**
Bakı Dövlət Universitetinin doktorantı, Azərbaycan

*https://doi.org/10.59849/iscapltmt.2024.58*

**Xülasə.** Məqalədə Azərbaycan nəsrinin görkəmli nümayəndəsi İsa Muğannanın "Məhşər" romanı və dünya şöhrətli qırğız yazıçısı Çingiz Aytmatovun "Çingiz xanın ağ buludu" povesti tarixi mühit və şərti metaforizm problemi fonunda tədqiq olunmuşdur. Araşdırmada adı çəkilən əsərlərdə təsvir olunan hadisə və əhvalatların cərəyan etdiyi tarixi mühit müstəvisində canlandırılan qəhrəmanların daxili-mənəvi dünyasının gizlinlərinə diqqət yetirilməsi hər iki müəllifin bədii sənətkarlığının səciyyəvi cəhətləri kimi təqdim olunmuşdur. Təhlil prosesində tarixi mühit və şərti metaforizm problemi müqayisəli kontekstdə dəyərləndirilmiş, bədii mətndə bu fərqliliyi yaradan səbəblərin aşkarlanılmasına çalışılmışdır. Məqalədə Əmir Teymur və Çingiz xan obrazlarının tarixi mühit və şərti metoforizm müstəvisində dəyərləndirilməsi fonunda Azərbaycan və qırğız bədii nəsrinin özünəməxsus çalarları diqqət mərkəzinə çəkilmişdir.
**Açar sözlər:** Azərbaycan ədəbiyyatı, qırğız ədəbiyyatı, İsa Muğanna, Çingiz Aytmatov, tarixi roman janrı, şərti metaforizm

## Historical environment and conditional metaphorism in the Azerbaijani and Kyrgyz artistic prose

***(in the context of novels "Judgment day" by Isa Mughanna and "Chingiz Khan's white cloud" by Chingiz Aytmatov)***

**Sanura Samadova**
PhD candidate
Baku State University, Azerbaijan

**Abstract.** In the article, the novel "Judgment day" by the outstanding representative of Azerbaijani prose, Isa Mughanna, and the novel "Chingiz Khan's white cloud" by the world-famous Kyrgyz writer Chingiz Aytmatov were studied against the background of the historical environment and the problem of conditional metaphorism. In the study, paying attention to the secrets of the inner-spiritual world of the heroes depicted in the historical environment where the events and stories unfolded in the mentioned works were presented as the characteristic aspects of the artistic craftsmanship of both authors. In the process of analysis, the problem of historical environment and conditional metaphorism was evaluated in a comparative context, an attempt was made to reveal the reasons that created this difference in the literary text. In the article, against the background of evaluating the images of Amir Teymur and Chingiz Khan at the level of historical environment and conventional metaphorism, the unique shades of Azerbaijani and Kyrgyz artistic prose are drawn into the center of attention.
**Keywords:** Azerbaijani literature, Kyrgyz literature, Isa Mughanna, Chingiz Aytmatov, historical novel genre, conventional metaphorism

Azərbaycan və qırğız bədii nəsrində tarixi mühit və şərti metaforizm probleminin araşdırılması üçün İsa Muğannanın "Məhşər" romanının və Çingiz Aytmatovun "Çingiz xanın ağ buludu" povestinin seçilməsi təsadüfi deyildir. Bu əsərlərin eyni tarixi dönəmdə yazılması, süjet xəttində bənzər problemlərə yönəlik hadisə və əhvalatların yer alması bəhs olunan məsələnin çözümü və bu müstəvidə müqayisələr aparılması üçün yetərincə material verməkdədir. Başqa sözlə, eyni tarixi epoxada yaşadıqları üçün hər iki yazıçının əsərlərində "*coğrafi amil, sosial həyat, mədəni mühit, iqlim, irqi, milli-etnik xüsusiyyətlər*" [18, s.24] ortaqlıq təşkil etməkdədir.

Bilindiyi kimi, istər İsa Muğannanın, istərsə də Çingiz Aytmatovun yaradıcılığında sovet siyasi rejiminin eybəcərlikləri, ədalətsizlikləri, müstəmləkəçilikdən qaynaqlanan məqamlar bədii sözün imkanları çərçivəsində aşkarlanmış, kəskin şəkildə ittiham hədəfinə çevrilmişdir. Müqayisələrin aparılması üçün bu aspektin həlledici olduğu da nəzərdən qaçırılmamalıdır.

Azərbaycan ədəbi tənqidində Çingiz Aytmatov və İsa Muğannaının yaradıcılıq əlaqələrindən ötəri şəkildə bəhs olunsa da, indiyədək onların ədəbi-bədii irsi müqayisəli şəkildə araşdırmaya cəlb olunmamışdır. Bu isə təbii olaraq Azərbaycan və qırğız bədii nəsri arasında bir çox ortaq məqamların aşkarlanmasına imkan verməmişdir.

Bilindiyi kimi, İsa Muğannanın zəngin nəsr yaradıcılığında "Məhşər" romanı önəmli yerlərdən birini tutmaqdadır. Romanın oxucu marağını çəkən mühüm özəlliklərindən biri yalnız tarixi mövzuda yazılması ilə bağlı deyil, həmçinin təsvir olunan dönəmin fərqli baxış bucağından canlandırılması, tarixi hadisələrə yanaşım tərzinin özünəməxsusluğu ilə səciyyələnir. Bütün bunlarla yanaşı, yazıçının İmadəddin Nəsimi dövrünə müraciət etməsi fonunda XIV-XV əsrin tarixi-mədəni və sosial-siyasi mənzərəsini yaratmaq məharəti əsərin bədii uğurunu şərtləndirən amillər sırasındadır. İsa Muğannanın "Məhşər" romanı yazıçının bütün digər əsərlərindən bir məqamı ilə də fərqlənməkdədir. Bu, müraciət olunan mövzunun bəşəri səciyyə daşıması, mənəvi-əxlaqi dəyərlərə söykənməsi, bu səbəbdən də diqqət və maraqla qarşılanmasıdır.

Tanınmış rus yazıçısı Sergey Borodinin (1902-1974) "Səmərqənd ulduzları" epopeyası ilə İsa Hüseynovun "Məhşər" romanını müqayisəli müstəvidə təhlillə cəlb edən filologiya üzrə fəlsəfə doktoru Nərgiz Rəhimova yazır: "*Hər iki romanda dövrün, zamanın və məkanın təsvir üsulunda müəyyən fərqlər az deyil. S.Borodinin romanında hadisələrin coğrafiyası daha epoxal olduğu halda, İ.Hüseynovun əsərində hadisələrin cərəyan etdiyi coğrafiya bir qədər konkretləşir. Birinci müəllifdə hadisələrin epik, ikincidə isə psixoloji-analitik təhlili başlıca yer tutur*" [15, s.55]. Araşdırıcının qənaətincə, Rusiya yazıçısından fərqli olaraq, bir müəllif kimi İsa Hüseynovun "*tarixə münasibətində başlıca prinsip tarixi faktları yalnız olduğu kimi təsvir etmək deyil, həm də tarixi həqiqətlərin mahiyyətini təsvir etmək, dövrün və hadisələrin psixologiyasını göstərməkdən ibarətdir*" [15, s.45].

İsa Muğannanın "Məhşər" romanını yalnız Azərbaycan ədəbiyyatı çərçivəsində deyil, yarandığı dönəmin sosial-siyasi və ədəbi-kulturoloji prosesləri kontekstində böyük dəyər daşımaqdadır. Belə ki, Azərbaycan ədəbiyyatında "Məhşər" romanına qədər heç bir əsərdə bəhs olunan dövrün sosial-siyasi və ədəbi-fəlsəfi mənzərəsi bu genişlikdə bədii təcəssümünü tapmamışdır.

Elmi-nəzəri araşdırmalarda "*fəlsəfi-tarixi roman*" [3, s.191] kimi dəyərləndirilən "Məhşər" əsərində hadisə və əhvalatların tarixi mühit və şərtilik müstəvisində bədii təcəssümü bütövlükdə yazıçının yaradıcılığında reallıq və metaforizmlə bağlı məqamların vəhdət və əlaqələrinin çözümü, dəyərləndirilməsi baxımından əhəmiyyətə malikdir. Bu amili gücləndirən əsas məqamlardan biri də müraciət olunan mövzunun mahiyyətindən və fəlsəfəsindən qaynaqlanmaqdadır.

"Məhşər" romanında yazıçı Azərbaycanın böyük təsəvvüf şairi İmadəddin Nəsiminin obrazını yaratmaqla istər bədii, istərsə də ictimai düşüncədə yeni, təkrarsız bir səhifənin açılmasını təmin etmişdir. Bu yenilik və təkrarsızlıq yalnız böyük hürufi şairinin obrazının yaradılması ilə bitmir, bütövlükdə "*Nəsimi şeiriyyətinin ağır, fəlsəfi poetikası "Məhşər"in dil və üslubunda müşahidə edilir*" [7]. Şübhəsiz ki, Nəsimi şeiriyyətinin təsiri romanın yazılışı prosesində yazıçının üslubunun kifayət

qədər metaforikləşməsinə təkan vermişdir. Həmçinin bu təsir yalnız dil və üslubla məhdudlaşmamış, daha dərin qatlara işləyərək bütövlükdə mətnin metaforikləşməsini şərtləndirmişdir.

Professor Yavuz Axundlunun qənaətincə, İsa Muğannanın "Məhşər" romanında şərti-metaforizm elementləri, həmçinin yazıçının əsərdə "*rəmzi leksikadan*" geniş istifadə etməsi ilə səciyyələnir: "*Romanın strukturu boyu ayrı-ayrı fakt və detalların rəmziləşdirilmiş obraz səviyyəsinə qaldırılması da xüsusi maraq doğurur. Məsələn ağ, xirqə, hürufi papağı və s. bu kimi detallar yüksək bədii simvollaşdırma sayəsində hürufilik rəmzi kimi təqdim olunurlar. Buna misal olaraq, romanda müxtəlif məqamlarda bədii detal səviyyəsində simvollaşmış "Qorxu" obrazının işlənməsidir*" [2, s.33-34]. Əlbəttə, romanda şərti metaforizm elementi kimi işlənən "rəmzi leksika" sadalanan örnəklərlə məhdudlaşmır. Əsərin bu kontekstdə təhlili bəhs olunan problemlə bağlı bir çox məqamların aşkarlanmasına imkan verməkdədir.

İsa Muğannanın bədii nəsrində tarixi şəxsiyyət probleminin təhlil obyektinə çevrilməsi bütövlükdə yazıçının yaradıcılığında gerçəklik və şərti metaforizmlə bağlı bir sıra aktual məsələlərin hərtərəfli dəyərləndirilməsi baxımından diqqəti çəkməkdədir. Çünki mövzusu keçmişdən alınan romanların önəmli bir qismində təsvir obyektinə çevrilən hadisə və əhvalatların mərkəzində məhz tarixi şəxsiyyətlər dayandığından reallıq və şərtilik məsələləri də əksər hallarda bu kontekstdə özünü büruzə verir. Maraqlıdır ki, mövzusu müasir həyatdan alınan yazılarında olduğu kimi deyil, tarixi mövzuda qələmə aldığı əsərlərdə də "*Azərbaycanın tarixi taleyində iflic yaratmış ehkamları darmadağın edən*" [11] İsa Muğannanın yaratmış olduğu qəhrəmanlar onun ədəbi mövqeyini və yaradıcılıq məfkurəsini şərtləndirir. Bütövlükdə "Məhşər" romanı ilə yazıçı "*Azərbaycan ədəbiyyatında ilk fəlsəfi-tarixi roman kimi janrın yeni bir mərhələsinin başlanğıcını qoydu*" [20].

Yazıçı romanda böyük mütəfəkkir, hürufi təriqətinin yaradıcısı Fəzlullah Nəiminin obrazını məharətlə yaratmış, onu dövrün ictimai-siyasi hadisələri fonunda canlandırmışdır. Lakin romanda Fəzlullah Nəiminin ən çox bağlı olduğu şəxs İmadəddin Nəsimidir. Hətta bəzi məqamlarda onların xarakter cizgilərini fərqləndirmək mümkün olmur. "*Ümumiyyətlə, romanda Nəsimini Nəimidən, onun elmi təlimindən və geniş əməli fəaliyyətindən ayırmaq, kənarda götürmək olmaz. Çünki əsərdə bu iki obraz vahid bir amala, ideyaya xidmət edir, həm xarakter, həm də əqidə cəhətdən biri digərini tamamlayır.*" [9, s. 156]. Bu isə ordan qaynaqlanır ki, müəllif hər iki obrazın xarakter cizgilərinin təsvirində hürifilikdən gələn məqamlara ağırlıq vermiş və qəhrəmanlarını bu ideya müstəvisində təqdim etmişdir.

Romanın baş qəhrəmanı olan İmadəddin Nəsimi təsvir olunan tarixi hadisələrin mərkəzində dayanmaqla, həmçinin süjet hörüyündə yer alan epizod, ştrix və lövhələrin biri-biri ilə əlaqələndirilməsində, bədii harmoniya və struktur bütövlüyünün təmin olunmasında başlıca fiqur kimi çıxış edir. Lakin konfliktin çözümündə və obrazın daxili-mənəvi dünyasının aşkarlanmasında onun Əmir Teymurla görüş səhnəsi daha çox diqqəti çəkir.

İsa Muğannanın "Məhşər" romanının İmadəddin Nəsiminin divanından gətirilən "*Mən cümlə cahanü kainatəm*" [13, s.7] epiqrafı ilə başlaması və şairin məşhur "*Nəsimi yer üzünün sultanıdır//Dövr onun, dövran onun dövranıdır*" [13 s.299] misraları ilə tamamlanması bütövlükdə əsərin böyük hürufi mütəfəkkirinin fəlsəfi düşüncəsinə dayandığının sübutudur.

Bundan əlavə, bir məqama diqqət yetirilməlidir ki, *"Nəsimi şair, filosof olmaqdan əlavə, bu romanda həm də İsa Hüseynovun öz düşüncələrinin daşıyıcısıdır. İslamın təhrif qanunlarına, tələblərinə qarşı çıxan müəllif bəzən öz demək istədiklərini onun dilindən ifadə edir. O zaman Nəsimi hürufi ideyalarının deyil, müəllif düşüncələrinin carçısına çevrilir"* [14]. Bu aspekt ona görə qabarıq təsir bağışlayır ki, İsa Muğannanının digər əsərlərində olduğu kimi, "Məhşər" romanında da avtobioqrafizm çalarları və elementləri kifayət qədər özünü büruzə verməkdədir.

"Məhşər" romanında Nəsimi ilə Əmir Teymurun görüşməsi hər iki obrazın daxili-mənəvi dünyasının gizlinlərinin aşkarlanması baxımından uğurlu tapıntıdır. Tədqiqatçıların qənaətincə, tarixdə bu hadisənin gerçəkliyini təsdiq edəcək hər hansı bir qaynaq yoxdur, sadəcə, müəllifin

təxəyyülünün məhsuludur. Belə ki, "*müəllif romanda dramatizmi gücləndirmək, ideya-əqidə mübarizəsini qabarıqlaşdırmaq, surətin xarakterini hərtərəfli açmaq üçün öz təxəyyülü ilə yaratdığı bu epizodu süjetə daxil etmişdir. İki qüvvətli şəxsiyyətin – fikir, düşüncə bahadırı ilə qılınc qəhrəmanının üz-üzə gəlməsi, həyat, ölüm, hakimiyyət, məslək və s. qlobal məsələlər barədə bir-biriləri ilə mübahisə etmələri əsərin fəlsəfi ahəngindən doğur*" [3, s.211]. Şübhəsiz ki, yazıçının tarixi hadisələrə münasibətində bu və ya buna bənzər məqamların olması təbiidir. Çünki keçmişə müraciət edən hər bir müəllifin məqsədi tarixi olduğu kimi canlandırmaq deyil, bəlkə tarixi hadisələrdən təsvir olunan əhvalatlara uyğun şəkildə yararlanmaqdır. Bu baxımdan yanaşdıqda İsa Muğannanın romanda Nəsimi ilə Əmir Teymuru qarşılaşdırması təbiidir və bu fakt bədii təxəyyül müstəvisində dəyərləndirilməlidir.

Azərbaycan dramaturgiyasında Əmir Teymur obrazını özünəməxsus şəkildə, böyük sənətkarlıqla yaratması Hüseyn Cavidə ağır başa gəlmiş, repressiya olunarkən bu mövzuda sorğu-suala tutulmuşdur [19, s.484].

Azərbaycanın Xalq yazıçısı Anarın fikrincə, İsa Muğanna "Məhşər" romanını qələmə alarkən *"Şərq poeziyasının, Şərq fəlsəfəsinin elə dərinliklərinə, elə gizlinlərinə daldı ki, bunlar yazıçının təfəkküründə, bütünlüklə dünyagörüşündə, tarixə baxışlarında ciddi təbəddülata səbəb oldu*" [4]. Müəllifin öz qənaətlərində haqlı olduğu ona görə şübhə doğurmur ki, həqiqətən də "Məhşər" romanınından sonra İsa Muğannanın dünyagörüşü və tarixə baxışlarında müşahidə olunan təbəddülat onun bütün yaradıcılıq yoluna təsir göstərmişdir. Yazıçının bu romandan sonra yazdıqları onun yaradıcılığının əvvəlki dövrü ilə müqayisədə mövzu, problem və forma baxımından xeyli dərəcədə fərqlənir.

Dünya nəzəri-estetik fikrində olduğu kimi, Azərbaycan ədəbiyyatşünaslığında da yaranan tarixi romanların müraciət olunan dövrün hadisələrini olduğu kimi əks etdirməsi, yaxud təhriflərə yol verilməsi ilə bağlı mübahisələrin olduğu sirr deyildir. Lakin nəzərə almaq lazımdır ki, yazıçının məqsədi tarixi hadisələri olduğu kimi ədəbiyyata gətirməkdən ibarət deyildir. Əslində, yazıçı tarixin ruhunu qoruyub saxlamaqla öz məqsəd və məramını əks etdirməyə çalışır və bu məqamda şərtiliyə, metaforizmə meyillənməsi, hadisələrə sərbəst şəkildə yanaşması sadəcə üslub məsələsidir və bu, müəllifə geniş imkanlar açır. İsa Muğannanın "Məhşər" əsərində tarixi hadisələrin və şəxsiyyətlərin canlandırılması fonunda qarşıya qoyulan məqsədə çatmaq üçün reallıqla yanaşı, şərti metaforizmin imkanlarından məharətlə yararlanması bir daha təsdiq edir ki, müasir mövzulu romanlarda olduğu kimi, tarixi romanlarda da bədii şərtiliyə söykənilməsi üslubi manevrlər üçün böyük imkanlar yaradır.

Onu da qeyd edək ki, "*yeni nəsrin inşasında daha yaxından iştirak edən*" [8, s.446]. İsa Muğannanın "Məhşər" romanı onun "*bədii nəsrində körpü rolunu oynamışdır. Müəllifin "Məhşər"ə qədərki əsərlərində xalqın taleyi, güzəranı, cəmiyyətdə olan problemlər ön mövqedə dayanırdı. "Məhşər romanından başlayaraq milli düşüncənin fonunda xəlqi və bəşəri problemlər qabardılırdı. İsa Muğannanın şəxsiyyəti xarakterinin bütövlüyü ilə "Məhşər" romanında həm avtobioqrafik surət, həm də bir yazıçı obrazı kimi görünürdü. Məlumdur ki, Nəsimi düşüncələrinin və yaradıcılıq bioqrafiyasının yazıçıya böyük təsiri olmuşdur*" [12, s.59]. Müəllifin sonrakı əsərlərində daha qabarıq şəkildə özünü göstərən bu təsir onun dil və üslubunda reallıqla yanaşı, şərti metaforizmin güclənməsinə təkan verdi. Bunu yazıçının yaradıcılıq örnəklərinin təhlili və dəyərləndirilməsi fonunda açıq şəkildə duymaq mümkündür.

Zəngin və çoxcəhətli yaradıcılığında "aktual və sosial problemlərə ağırlıq verən" [16, s.46] yazıçı Çingiz Aytmatovun "Çingiz xanın ağ buludu" [6] povestində məharətlə yaratmış olduğu Çingiz xan obrazı tarixi mühit və şərti metaforizm kontekstində təqdim olunmuşdur. Qeyd edək ki, bu povest yazıçının "Gün var əsrə bərabər" [5] romanından senzuranın çıxardığı hissənin ayrıca kitab halında yayınlanmış şəklidir. Yazıçı çox doğru olaraq yayınlanmış romanda variantlılıq yaratmamaq üçün ixtisar olunmuş bölümü müstəqil əsər kimi oxuculara təqdim etmişdir.

Ədəbi tənqiddə "Çingiz xanın ağ buludu" povestinə son dərəcə yüksək dəyər verilməsi, əsərin geniş çevrədə müzakirə obyektinə çevrilməsi yalnız müəllifin cəsarəti, sovet siyasi rejimi dönəmində belə ciddi mövzuya müraciət etməsi ilə bağlı deyildir. Povestin diqqət mərkəzində olması, eyni zamanda burada qaldırılan problemin yalnız Qırğızıstanın deyil, bütövlükdə Sovetlər Birliyində yaşayan xalqlarının taleyi ilə bağlı olması ilə mənalanır.

Elə buradaca zəruri bir məqama diqqət yetirilməlidir ki, İsa Muğanna əvvəllər yazdığı əsərləri təkmilləşdirərək dəfələrlə yeni redaktədə təqdim etdiyi halda, Çingiz Aytmatov hətta senzuranın redaktə etdiyi hissələri də sonradan mətnə əlavə etməmiş, onun ayrıca yayımlanmasını münasib bilmişdir. Bunun əsas səbəbi oxucunun mətnə inanması, əsəri yeni versiyada oxuyarsa, inamının sarsılması ehtimalı ilə bağlıdır.

*"Söz Aytmatovun dilində mum kimidir; hara istəsə əyir, lakin sonda mütləq düzəldib, ecazkar sərkərdə kimi düzləndirir. Hiss Aytmatovun qəlbində qıjov çay kimidir – həmişə çağlayır, daim təlatümlüdür. "Əsrə bərabər gün"də dünyanın bu başından o başına gedən bir qatar obrazı var. Elə-belədən "obraz" demədim ona. Dünyanın ən tutumlu hadisələri, ən ayıq oxucuları, ən qəddar tiranları bu qatarın "sərnişin"ləridir. "Maşinist" – ədib onların hərəsini öz tale mənzilinə, niyyət istiqamətinə aparır. Dövrandan, siyasi "auksion"lardan tutmuş, çox-çox müxtəlif vəzifə, insaniyyət peşələri daşıyan insanlara qədər – hər kəs, hər şey bu fenomenal ədib – "drijor"un əsrarəngiz qələm – "çubuğu" ilə idarə olunur, hər kəs və hər şey özünüifaya, özünüifadəyə məruz qalır. Dünya bədiiyyatında oxşarı olmayan, əsas hadisə və predmetlərə nisbətdə "ofsayt" – abzas kimi görsənən, lakin əslində, bütün olayların lokomotivi olan bu qatarın əsas yükü fəlsəfədir; manqurtizm,"yersiz gəldi - yerli qaç", sonda üzülməsə də, nazilən həqiqətlər fəlsəfələri"* [1].

Çingiz Aytmatovunun povestində, əslində, iki paralel süjetdən bəhs olunur. Birinci süjet Çingiz xanla, ikinci süjet isə "Gün var əsrə bərabər" romanındakı Abutalıb Kutubbayevlə bağlıdır. Yazıçı tarixilik və müasirlik kontekstində bu iki xətti məharətlə əlaqələndirmişdir. Povestdə Çingiz xan qaniçənliyinə, zülmkarlığına görə İosif Stalinlə müqayisəyə çəkilir. Əsərdə bu qarşılaşdırma tarixən yaşanan faciələrin zaman keçdikcə fərqli formalarda təzahürünü aşkara çıxarmağa imkan verir. "*Romanda Çingiz xanın Tanrıya qarşı çıxması, təbiətin qanununu pozmasının nəticəsində bulud onu tərk edir və onun məğlubiyyətinin başlanğıcı olur*" [10, s.227].

Qeyd edək ki, Çingiz Aytmatovun "Çingiz xanın ağ buludu" povestində yaradılmış tarixi şəxsiyyətlərin, özəlliklə Çingiz xan obrazının bədiilik kriteriyaları ilə səciyyələndirilməsi özünəməxsus sənətkarlıq çalarlarının aşkarlanması baxımından diqqəti çəkməkdədir. Bu isə onunla bağlıdır ki, müəllif tarixi hadisələri və dövrün şəxsiyyətlərini canlandırarkən faktlara, sənədlərə söykənməklə yanaşı, fərqli baxış sərgiləmiş, məqsədli tərzdə bəhs olunan dövrün mənzərəsini əks etdirməyə çalışmışdır.

Çingiz Aytmatov böyük xaqan Çingiz xanın məğlubiyyəti ilə sovet siyasi rejimi dönəmində hakimiyyəti gücləndirmək, qorxu, xof yaratmaq məqsədilə həyata keçirilən repressiyaların imperiyanın çöküşünə aparan ortaq məqamlarına diqqəti yönəldir. O, sözün şərti-metaforik imkanlarından bəhrələnərək tarixin müxtəlif mərhələlərində insanlığa qarşı yönələn zülmün, zalımlığın, qaniçənliyin gec-tez dövlətin tənəzzülünə səbəb olduğunu vurğulayır.

Çingiz Aytmatovun "Çingiz xanın ağ buldu" povestinin uğur qazanmasının, qısa zaman kəsiyində geniş oxucu marağını çəkməsinin ən mühüm səbəblərindən biri, şübhəsiz ki, burada hadisə və əhvalatların təsvirində real gerçəkliklə şərti metaforizmin biri-birini məharətlə izləməsi, tamamlaması və bədii mətnin təməlində dayanan amilə çevrilməsidir.

İstər İsa Muğannanın "Məhşər", istərsə də Çingiz Aytmatovun "Çingiz xanın ağ buludu" əsərlərində tarixi mühit və şərti metaforizm məsələsi təsvir olunan hadisə və əhvalatlar, həmçinin məharətlə canlandırılan obrazların timsalında bədii təcəssümünü tapır.

Təhlillərdən də göründüyü kimi, İsa Muğannanın "Məhşər" romanı və Çingiz Aytmatovun "Çingiz xanın ağ buludu" povesti tarixi mühit və şərti metaforizm probleminin dəyərləndirilməsi

baxımından zəngin material verən bədii örnəklər kimi diqqəti çəkir. Hər iki yazıçı dönəmin ağır sosial-siyasi şərtlərinə və senzura yasaqlarına baxmayaraq, bədii sözün imkanlarından yararlanmaqla bəhs olunan problemin fərqli təzahürlərini əks etdirməyə nail olmuşlar.

Bütövlükdə, İsa Muğannanın "Məhşər" romanı və Çingiz Aytmatovun "Çingiz xanın ağ buludu" povesti yalnız müraciət olunan mövzunun orijinallığı, dövrün, epoxanın sosial-siyasi ziddiyyətlərinin hərtərəfli şəkildə canlandırılması, yaradılan tarixi və bədii qəhrəmanların daxili-mənəvi dünyasının zənginliyi ilə deyil, həmçinin yüksək sənətkarlıq nümunəsi olması ilə də seçilir ki, bu kontekstdə hər iki yazıçının reallıq və şərti metaforizmdən məharətlə bəhrələnməsi önəmli amillərdən biri kimi dəyərləndirilməlidir.

Şübhəsiz ki, gələcək araşdırmalarda problemə yenidən, daha geniş müstəvidə, fərqli baxış müstəvisindən yanaşılacaq, İsa Muğanna və Çingiz Aytmatovun bir sənətkar kimi bütöv yaradıcılıq yolu tarixi mühit və şərti metaforizm baxımından dəyərləndiriləcəkdir.

## Ədəbiyyat

1. Abbaslı, T. Sənət xanı – Çingiz. "Mədəniyyət" qəzeti, 10 dekabr 2010, s.13.
2. Axundlu, Y. Tarix və roman. – Bakı: Yazıçı, 1988, 190 s.
3. Axundlu, Y. Azərbaycan tarixi romanı: mərhələlər, problemlər (1930-2000). – Bakı: 2005, 550 s.
4. Anar. Qəribə dünyanın adamı. "Ədəbiyyat qəzeti", 30 may 2008, № 20 (3615), s.3.
5. Aytmatov, Ç. Gün var əsrə bərabər. – Bakı: Qanun, 2020, 399 s.
6. Aytmatov, Ç. Çingiz xanın ağ buludu. – Bakı: Kitab klubu, 2023, 156 s.
7. Babasoy, Ü. İsa Muğannanın əsərlərinin estetik miqyası. "Kaspi" qəzeti, 11 fevral 2017, s.21.
8. Əhmədov, B. XX yüzil Azərbaycan ədəbiyyatı. – Bakı: Elm və təhsil, 2015, 550 s.
9. Əlimirzəyev, X. Bədii həqiqət uğrunda. – Bakı: Yazıçı, 1984, 240 s.
10. Həsənli, M. Çingiz Aytmatov fenomeni və Azərbaycan. – Bakı: Elm və təhsil, 2020, 406s.
11. Qəhrəmanova, R. İsa Muğanna zirvəsi. "Kredo" qəzeti, 1 noyabr 2018, s.7.
12. Mikayılov, Ü. İsa Muğanna fenomeninə fərqli münasibət. "Əlyazmalar yanmır" (Elmi məqalələr toplusu), AMEA Füzuli adına Əlyazmalar İnstitutu, 2021, №2 (13), s.55-63.
13. Muğanna, İ. Seçilmiş əsərləri: 6 cilddə, III cild. – Bakı: Avrasiya press, 2009, 299 s.
14. Müşfiq, Ş. Bədii nəsrimizdə İsa Hüseynov zirvəsi. "525-ci qəzet", 3 aprel 2018.
15. Rəhimova, N. Sergey Borodin və İsa Hüseynovun tarixi romanlarında obrazların tipologiyası, Filologiya üzrə fəlsəfə doktoru alimlik dərəcəsi almaq üçün təqdim olunmuş dissertasiya. – Bakı: BSU, 2016, 145 s.
16. Султанлы, В. Место тюркской литературы в мировой культуре. Ирс/Наследие (Москва), 2007, № 6 (30): 44-46 стр.
17. Sultanlı, V. Azerbaycan Mühaceret Edebiyatı. – İstanbul: Avrupa Yakası Yayınları, 2007, 224 s.
18. Sultanlı, V. Azərbaycan ədəbi tənqidi. – Bakı: Nurlar, 2019, 312 s.
19. Sultanlı, V. Azərbaycan Edebiyatı ve Edebiyat Teorisi Zemininde Türkistan, Tarihi ve Edebi Metinlerde Türkistan, cilt 2. – Ankara: Tasarım Baskı, 2023, s.471-493.
20. Yusifli, V. İsa Hüseynovdan Muğannayadək: Böyük tərcümeyi-haldan bir neçə sətir. "Ədalət" qəzeti, 30 iyun 2018, s.15.
21. Гасанов, М. (2016). Киргизское и азербайджанское село в период Второй мировой войны: от реальности к художественному вымыслу. Науковий вісник Міжнародного гуманітарного університету. Серія: Філологія, 66-69.